# Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası barədə Əmlak Məsələləri Dövlət Komitəsinin 2013-cü il üzrə

## Hesabatı

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Komitə üzrə imzalanmış 2013-cü il 07 yanvar tarixli 02 nömrəli əmrlə "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 05 sentyabr tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin 2013-cü il üçün İş Planı" təsdiq edilmişdir.

Həmin İş Planında "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Komitə tərəfindən icrası nəzərdə tutulmuş bəndlərin realizasiyası məqsədilə konkret tədbirlər göstərilmiş, Komitənin aidiyyəti bölmə və qurumları üzrə görüləcək işlər və nəticə indikatorları müəyyən edilmişdir.

İş Planı Komitənin 17.01.2013-cü il tarixli 130120800184 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

**1. “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **1.1-ci bəndinin** icrasının təmin edilməsi məqsədi ilə “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı üzrə məsul şəxsin müəyyən edilməsi barədə” Komitə sədrinin 2012-ci il 07 dekabr tarixli 227 nömrəli əmrinə uyğun olaraq “İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları” layihəsi hazırlanmış və aidiyyəti üzrə təqdim edilmişdir. Həmin Qaydalar Komitə üzrə imzalanmış 07.02.2013-cü il tarixli 17 nömrəli əmrlə təsdiq edilmişdir. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində “İnformasiya azadlığı ilə bağlı daxili icraat Qaydaları” komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Eyni zamanda, Ədliyyə Nazirliyindən daxil olmuş müraciətə əsasən Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının Kollegiyanın qərarı ilə təsdiq edilməsi və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün müvafiq işlər yekunlaşdırılmaqdadır.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **1.2-ci bəndinə** uyğun olaraq İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə komitənin aparatının struktur bölmələrinin, strukturuna daxil olan və tabeliyindəki qurumlarının məsul şəxsləri üçün Komitədə 2013-cü il iyul ayının 12-də “İnformasiya işinin təşkili” adlı treninq keçirilmişdir.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **2.1-ci bəndinə** uyğun olaraq Komitənin “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununun 33-cü maddəsinin tələbləri əsasında rəsmi internet səhifəsi fəaliyyət göstərir. Komitənin internet səhifəsi müntəzəm olaraq texniki, funksional və məzmun baxımından təkmilləşdirilir, informasiya əldə etmək üçün lazımi bölmələr fəaliyyət göstərir və müntəzəm

olaraq yeniləşdirilmiş məlumatlarla təmin edilir. İnternet səhifəsində dövlət əmlakının idarə edilməsi, icarəyə verilməsi, özəlləşdirilməsi, daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatı sahəsində qanunvericilik bazası yerləşdirilmişdir. Eyni zamanda daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmət haqları və rüsumlarla bağlı informasiyalar saytda yerləşdirilmişdir. İnternet saytında yerləşdirilmiş komitənin fəaliyyətini əks etdirən müxtəlif səpgili informasiyalar və mətbuat üçün açıqlamalar, o cümlədən keçirilmiş və nəzərdə tutulmuş hərraclar, müsabiqə və tenderlər barədə elanlar, özəlləşdirmənin statistikası, işə qəbul qaydaları, vakansiyalar, vəzifəli şəxslərin qəbul günləri barədə informasiyalar müntəzəm olaraq yenilənir.

Saytda xidmət vasitəsi kimi, dövlət əmlakından icarə əsasında istifadə edən fiziki və hüquqi şəxslər üzrə icarə müqaviləsinə görə borclarının öyrənilməsi imkanı, dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında xüsusi hesabat forması blanklarının çapı və təqdim edilməsi imkanları yaradılmışdır. Həmçinin internet saytlarında elektron xidmətlər bölməsi yaradılıb. Buradan e-emdk.gov.az portalına keçid təmin edilib. Bu bölmələrdə elektron xidmətlərin göstərilməsi qaydaları, qeydiyyat üçün müraciət (ərizə) formaları və tələb olunan sənədlərin siyahısı, qeydiyyat üçün tələb olunan dövlət rüsumu və xidmət haqları – bütövlükdə elektron xidmətlərdən istifadə etmək üçün tələb olunan məlumatlar yerləşdirilib.

Eyni zamanda komitənin yanında fəaliyyət göstərən Hərracların Təşkili üzrə Auksion Mərkəzinin auksion.az internet saytı vasitəsi ilə dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərrac qaydaları, bu sahədəki qanunvericilik, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclar və onların nəticələri, özəlləşdirməyə çıxarılan müəssisələr barədə məlumatlarla tanış olmaq mümkündür.

Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə keçirilən səhmdar cəmiyyətlərinin səhmlərinin əmək kollektivinə güzəştli, pul hərraclarında və ixtisaslaşdırılmış pul hərraclarında satışı haqqında elanlar, kiçik dövlət müəssisələrinin (obyektlərinin), istifadəsiz qeyri-yaşayış sahələrinin və tikintisi

başa çatdırılmamış obyektlərin hərraclar vasitəsilə özəlləşdirilməsi haqqında elanlar, dövlət müəssisələrinin və səhmdar cəmiyyətlərinin səhmlərinin satışı üzrə investisiya müsabiqələri haqqında elanlar, müəssisələrin idarəetməyə verilməsi ilə əlaqədar məsləhətçi xidmətlərinin və dövlət əmlakının qorunub saxlanılması və mühafizəsi ilə bağlı xidmətlərin satın alınması üzrə tender elanları mütəmadi olaraq yerləşdirilir.

Bununla yanaşı ƏMDK-nın həyata keçirdiyi ictimai təqdimatlar, geniş tərkibli və beynəlxalq tədbirlər və s. Komitənin internet səhifəsinin "Xəbərlər" bölməsində daima yenilənərək operativ şəkildə təqdim edilir. Eyni zamanda internet səhifəsində xidmət vasitəsi kimi, dövlət əmlakından icarə əsasında istifadə edən fiziki və hüquqi şəxslər üzrə icarə müqaviləsinə görə borclarının öyrənilməsi imkanı, dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında xüsusi hesabat forması blanklarının çapı və təqdim edilməsi imkanları yaradılmışdır.

İnformasiya üzrə məsul şəxsin müəyyən etdiyi işçi tərəfindən daima press relizlər hazırlanır və komitənin saytlarının yenilənməsi mütəmadi olaraq yoxlanılır.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.2-ci bəndinə** uyğun olaraq Komitənin fəaliyyət istiqamətləri üzrə vətəndaşlara və hüquqi şəxslərə göstərdiyi xidmətlər barədə 2012-ci ilin yekununa həsr olunmuş illik məruzə Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. 2013-cü il üçün illik məruzənin də yerləşdirilməsi təmin ediləcəkdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.3-cü bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən öz fəaliyyəti ilə bağlı məlumatların ictimaiyyətə çatdırılması üzrə vaxtaşırı müvafiq tədbirlərin görülməsi təmin edilir.. "Azərbaycan 10 ildə - sosial-iqtisadi inkişaf" Sərgisi çərçivəsində Əmlak Məsələləri Dövlət Komitəsinin son 10 illik tarixini əks etdirən pavilyon təşkil edilmişdir. Pavilyonda ictimaiyyətə komitənin 10 ildə əldə etdiyi nailiyyətlər nümayiş etdirilmişdir. Eyni zamanda, Komitənin səlahiyyətli şəxslərinin müxtəlif Kütləvi İnformasiya Vasitələrinə (APA, Lider TV, Space TV, İctimai TV və s.) müsahibələri olmuşdur. İl ərzində

mətbuatda komitənin fəaliyyət istiqamətləri üzrə atılmış addımlar, son yeniliklərlə bağlı məqalələrin dərc olunması təmin edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.4-cü bəndinə** uyğun olaraq Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələrinin icrası, habelə vətəndaşlara təqdim edilən xidmətlərin prosedurlarının sadə anlaşılan dildə dərci, habelə internet səhifəsində yerləşdirilməsi təmin edilir. Hazırda daşınmaz əmlakın qeydiyyatı, kadastrı və ünvan reyestri sahəsində qanunvericiliyi əks etdirən (son dəyişikliklər və əlavələrlə) yeni hüquqi bələdçi və toplu hazırlanır və yekunlaşmaq üzrədir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.5-ci bəndinə** uyğun olaraq Komitənin www.emdk.gov.az, Hərracların Təşkili üzrə Auksion Mərkəzinin www.auksion.gov.az, Daşınmaz Əmlakın Kadastrı və Texniki İnventarlaşdırma Mərkəzinin www.kadastr.az internet səhifələri fəaliyyət göstərir.

2013-cü ilin aprel ayının 23-də Komitənin e-emdk.gov.az elektron xidmətlər portalının ictimai təqdimatı keçirilmişdir. Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqaməti üzrə göstərilən elektron xidmətlərdən vətəndaşlar və hüquqi şəxslərin daha rahat və geniş istifadə edə bilməsi üçün www.e-emdk.gov.az elektron xidmətlər portalı yaradılmışdır. Portalda Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqaməti üzrə göstərdiyi 13 interaktiv və 3 informativ elektron xidmət təşkil edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **4.1-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi ilə bağlı 20-ə yaxın normativ-hüquqi akt layihələrinin, o cümlədən komitənin fəaliyyət istiqamətləri üzrə elektron xidmətlərin inzibati reqlamentləri layihələri "Elektron hökumət" portalında yerləşdirilməsi ilə ictimai müzakirəyə çıxarılması təmin edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **4.3-cü bəndinə** uyğun olaraq Komitənin rəsmi internet səhifəsində "Vətəndaşlar üçün" və "İctimai məlumatlandırma" bölmələri fəaliyyət göstərir.

Burada “Qəbul günləri”, “Sual-cavab”, “Məktub göndər” və “Maarifləndirmə”, “Xəbərlər” kimi alt bölmələri vasitəsilə vətəndaşlarla interaktiv sual-cavab aparmaq, vətəndaşlar tərəfindən göndərilən məktubları qəbul edərək cavablandırmaq olur. Eyni zamanda Komitənin vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbul günləri haqqında məlumatlar hər ay mütəmadi olaraq yenilənir. “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **5.2-ci bəndinə** uyğun olaraq Komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi bütün elektron xidmətlərin vahid bir internet resursunda mərkəzləşməsi və vətəndaşların bu elektron xidmətlərdən rahat istifadə etməsini təmin etmək məqsədilə www.e-emdk.gov.az “Elektron xidmətlər portalı” hazırlanmışdır. 23 aprel 2013-cü il tarixində Əmlak Məsələləri Dövlət Komitəsinin “Elektron Xidmətlər Portalı”nın (www.e-emdk.gov.az) ictimai təqdimatı keçirilmişdir. Portalda Komitənin fəaliyyət istiqamətləri üzrə təsdiq edilmiş 16 elektron xidmətdən 13-ü (Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, Daşınmaz əmlak obyektləri barədə kadastr məlumatlarının hazırlanması və kadastr xidmətlərinin göstərilməsi üçün müraciətin və sənədlərin qəbulu, Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu, Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu; Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu; Daşınmaz əmlakın lizinqinin dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu və s.) təşkil edilmişdir. Həmçinin portalda Komitənin fəaliyyət istiqamətləri üzrə 3 informativ elektron xidmətdə yerləşdirilmişdir. 2014-cü il üçün əlavə olaraq 10 elektron xidmətin təşkili ilə bağlı tədbirlər görülməkdədir. Belə ki, texniki təhlillər aparılmışdır, müvafiq elektron xidmətlərin “Elektron xidmət növlərinin siyahısı”na daxil edilməsi ilə bağlı layihə və inzibati reqlamentlərin aidiyyəti dövlət orqanları ilə razılaşdırılması prosesinə başlanılmışdır.

Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlərlə bağlı 27 noyabr 2013-cü il tarixində “Şəffaflığın təminatı-

elektron xidmətlər" mövzusunda ictimai təqdimat keçirilmiş və elektron xidmətlərin təşkili, elektron xidmətlərdən istifadə qaydaları və vətəndaşlardan və hüquqi şəxslərdən daxil olan müraciətlərin icra vəziyyəti ilə bağlı təqdimatlar nümayiş etdirilmişdir.

"Dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə edilməsi vəziyyəti haqqında xüsusi hesabat formasının təqdim olunması" elektron xidmətinin ictimai təqdimatı ilə bağlı prezentasiya hazırlanmış və müvafiq olaraq təqdim edilmişdir. Eyni zamanda www.e-emdk.gov.az "Elektron Xidmətlər" portalında hər bir elektron xidmətlə bağlı videoroliklər və prezentasiyalar yerləşdirilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **5.4-cü bəndinə** uyğun olaraq daşınmaz əmlakın qeydiyyatı üzrə xidmət haqlarının və icarə müqavilələri üzrə ödənişlərin istənilən ödəmə məntəqəsindən və elektron ödənilməsi və həmin ödənişlərin onlayn qaydada Komitənin müvafiq informasiya sistemləri ilə əlaqələndirilməsi işləri başa çatdırılmaqdadır.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **5.5-ci bəndinə** uyğun olaraq Gəncə şəhərində Komitə tərəfindən göstərilən elektron xidmətlər barədə fevral ayının 04-də İctimai tədbir, noyabr ayının 21-də isə "Kadastr və daşınmaz əmlakın qeydiyyatı Layihəsi"nin təqdimatı keçirilmişdir.

Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **9.2-ci bəndinə** açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması istiqamətində "daşınmaz əmlak" bülletenində, Mülkiyyət qəzetində komitənin fəaliyyət istiqamətləri üzrə maarifləndirici məlumatların, məqalələrin dərci təmin edilmişdir.

**2. “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”**

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **2.5-ci bəndinə** uyğun olaraq Komitə sədri tərəfindən vətəndaşların birbaşa və səyyar qəbulu təşkil olunur.

Belə ki, vətəndaşların birbaşa qəbulu ayda bir dəfə Komitənin inzibati binasında həyata keçirilir.

Eyni zamanda mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, komitə sədri tərəfindən 2013-cü il aprel ayının 26-da Gəncə şəhərində respublikanın qərb bölgəsi üzrə Gəncə və Naftalan şəhərlərini, Göygöl, Samux, Daşkəsən, Şəmkir, Qazax, Tovuz, Ağstafa və Gədəbəy rayonlarını, 2013-cü ilin may ayının 24-də Şirvan şəhərində respublikanın qərb bölgəsi üzrə Hacıqabul, Sabirabad, Saatlı, Salyan, İmişli, Neftçala rayonlarını, 2013-cü ilin iyun ayının 29-da Cəlilabad şəhərində respublikanın Lənkəran, Lerik, Masallı, Astara, Cəlilabad, Yardımlı və Biləsuvar rayonlarını, 2013-cü ilin iyulun 20-də Zaqatala şəhərində Zaqatala, Şəki, Balakən, Qax və Oğuz rayonlarını, iyul ayının 27-də Şamaxı şəhərində İsmayıllı, Şamaxı, Ağsu, Qəbələ və Qobustan rayonlarını, 2013-cü ilin avqustun 12-də Xaçmaz şəhərində Quba, Qusar, Şabran, Siyəzən, Xaçmaz və Xızı rayonlarını, avqustun 30-da Sumqayıt şəhərində Abşeron rayonu və Sumqayıt şəhərini, 2013-cü ilin sentyabrın 13-də Yevlax şəhərində Mingəçevir və Yevlax şəhəri, Goranboy, Göyçay, Ağdaş, Zərdab, Kürdəmir, Ucar, Bərdə, Beyləqan, Tərtər, Ağcabədi, Füzuli və Ağdam rayonlarını, noyabr ayının 15-də Şəkidə Oğuz, Şəki, Qəbələ və İsmayıllı rayonlarını əhatə etməklə 172 vətəndaşın qəbulu keçirilmişdir. Vətəndaş qəbulları ilə bağlı məlumatların elektron kütləvi informasiya vasitələri, qəzetlər və digər aidiyyəti informasiya vasitələrində işıqlandırılması təmin edilmişdir. Qəbul əvvəlcədən qanunla müəyyən edilmiş qaydada vətəndaşların ərizələri və həmin gün müraciət edən vətəndaşların birbaşa qəbulu yolu ilə keçirilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqaməti üzrə vətəndaşların qəbulu zamanı daxil olmuş müraciətlərə baxılması və müsbət həll edilməsi

istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bu barədə Komitənin müvafiq qurumlarına və ərazi bölmələrinə konkret tapşırıqlar verilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **2.6-cı bəndinə** uyğun olaraq Vətəndaşların ərizə və şikayətlərinin qəbulu, qeydiyyatı və rəsmi cavablandırılması “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Dünya Bankının Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində hazırlanmış Avtomatlaşdırılmış Sənəd Dövriyyəsi İnformasiya Sistemi (ASDİS) vasitəsi ilə aparılır.

Elektron poçt vasitəsilə ərizə və şikayətlərin qəbulu işinin təşkili məqsədi ilə komitənin office@emdk.gov.az elektron poçt ünvanına daxil olmuş müraciətlər, qeydiyyata alınaraq cavablandırmaq üçün aidiyyəti üzrə struktur bölmələrə və qurumlara göndərilir. Komitənin elektron poçt ünvanına hüquqların qeydiyyatı ilə bağlı daxil olan müraciətlər həmin gün, xüsusi araşdırma tələb edən müraciətlər isə üç gün müddətində cavablandırılır.

Hesabat dövründə komitənin rəsmi internet səhifəsinə vətəndaşlar tərəfindən 551 elektron müraciət daxil olmuşdur. Bu müraciətlərdən 505-i sorğu, 46-sı isə şikayət xarakterli olmuşdur.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **8.1-ci bəndinə** uyğun olaraq “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinə əsasən Əmlak Məsələləri Dövlət Komitəsinin Aparatı, ərazi şöbələri, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi və Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti üzrə inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr və onların tutulması yolları barədə məlumatlar ayda bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir.

2013-cü ilin yanvar-sentyabr ayları ərzində Komitədə müvafiq inzibati vəzifələrə qəbulla bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət

Qulluğu Məsələləri üzrə Komissiya ilə əlaqəli işlər davam etdirilmişdir. Hesabat dövründə «Dövlət qulluğu haqqında» Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə Komitə tərəfindən 1 daxili müsahibə, Komissiya tərəfindən 3 ümumi müsahibə və 2 müsabiqə elan edilmişdir.

Ümumilikdə inzibati vəzifələrin 5-7-ci təsnifatları üzrə vəzifələrə elan edilmiş müsabiqədən müvəffəqiyyətlə keçmiş 73 namizəd müvafiq vəzifələrə təyin olunmuşlar.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **8.3-cü bəndinə** uyğun olaraq Komitədə çalışan işçilərin etik davranış, maraqların toqquşması, informasiya azadlığı və s. təlim ehtiyaclarının təmin edilməsi məqsədilə “Əmlak Məsələləri Dövlət Komitəsinin işçiləri üçün 2013-cü il ərzində keçiriləcək təlim seminarlarının Plan-Qrafiki” müvafiq əmrlə təsdiq edilmişdir. Plan-qrafikə uyğun olarq komitənin aidiyyəti məsul struktur bölmələri və vəzifəli şəxsləri tərəfindən Komitə aparatının struktur bölmələrinin, ərazi şöbələrinin, tabelikdə olan qurumların əməkdaşlarına yuxarıda qeyd edilən istiqamətlər üzrə təlimlərin keçirilməsi təmin edilmişdir.

Eyni zamanda Dünya Bankı ilə birlikdə həyata keçirilən “Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi” çərçivəsində yaradılmış Təlim Mərkəzinin müəyyən edilmiş məqsədlər üzrə fəaliyyəti təmin edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın 9.2-ci və 10.1-ci bəndlərinə uyğun olaraq komitədə çalışan dövlət qulluqçuları üçün 2013-cü ilin aprel-may və oktyabr-noyabr aylarında “Dövlət qulluqçularının etik davranış qaydaları”, sentyabr ayında “İnformasiya azadlığının təmin edilməsi” mövzusunda 19 seminar, iyul-avqust aylarında isə “Maraqlar toqquşmasının qarşısının alınması” mövzusunda 18 təlim seminarı keçirilmişdir. Regionlar üzrə keçirilmiş və 590 nəfərin iştirak etdiyi həmin seminarlar barədə məlumatlar Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilmişdir. Dövlət qulluqçularının etik

davranış məsələləri üzrə maarifləndirmə işinin davam etdirilməsi məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş etik normaları üzrə gələcəkdə mütəmadi təlimlərin təşkil edilməsi planlaşdırılır.

2012-ci ildən komitənin internet saytında etik məsələlər üzrə xüsusi bölmədə müvafiq hesabatlar və məlumatlar yerləşdirilməsi təmin edilir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 10.2-ci bəndinə uyğun olaraq dövlət qulluqçularının etik davranış məsələləri üzrə 2013-cü ildə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən görülmüş tədbirlər barədə Hesabat Komitənin müvafiq məktubu ilə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **10.4-cü bəndinə** uyğun olaraq Komitənin internet saytında etik məsələlər üzrə xüsusi bölmə mövcuddur ki, bölmədə dövlət qulluqçularının etik davranış qaydaları ilə bağlı Azərbaycan Respublikasının qanunvericilik aktları və Komitədə qulluq keçən dövlət qulluqçularının vəzifə təlimatları yerləşdirilmişdir. Bununla yanaşı dövlət qulluqçularının qeyri-etik davranışları ilə bağlı elektron şikayət etmə mexanizmi və etik hesabatların yerləşdirilməsi də planlaşdırılır. Eyni zamanda Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət qulluqçularının etik davranış məsələləri üzrə 2013-cü ildə görülmüş tədbirlər barədə məlumat "Etik davranış qaydaları" bölməsində yerləşdirilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.1-ci bəndinə** uyğun olaraq Satınalmaların keçirilməsi ilə bağlı elanlar Satınalmalar üzrə Dövlət Agentliyinin və Komitənin rəsmi saytlarında yerləşdirilir.

ƏMDK tərəfindən Bakı şəhəri üzrə nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrinin quraşdırılması işlərinin açıq tenderi ilə bağlı 22 yanvar 2013-cü il tarixində Azərbaycan Respublikası Satınalmalar üzrə Dövlət Agentlinin tender.gov.az internet səhifəsində elan yerləşdirilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.3-cü bəndinə** uyğun olaraq Satınalmaların qeydiyyatı aparılan zaman

tender iştirakçıları haqqında bütün tələb olunan məlumatlar əks etdirildiyindən pozuntuya yol vermiş iştirakçılar barədə proqramda xüsusi qeydlər aparılmaqla nəzarəti həyata keçirtmək mümkündür.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.4-cü bəndinə** uyğun olaraq Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqları mövcud qanunvericiliyə uyğun qaydada qorunur. İddiaçılar hüquqlarının həyata keçirilməsi və pozulması ilə bağlı müvafiq olaraq ərizə və şikayətlər daxil olacağı təqdirdə onlara təxirə salınmadan baxılması, müvafiq tədbirlər görülməsinə yönəlmiş zəruri addımlar atılmışdır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.5-ci bəndinə** uyğun olaraq Dövlət satınalmaları keçirilən zaman korrupsiya halları aşkar edilərsə bu barədə hüquq mühafizə orqanlarına müvafiq məlumatlar təqdim olunacaqdır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.6-cı bəndinə** uyğun olaraq Dövlət Satınalmalar Agentliyi ilə müzakirələr aparılmış və belə nəticəyə gəlinmişdir ki, dövlət satınalmaları zamanı keçiriləcək hər satınalma üzrə ayrıca fərdi olaraq ehtimal olunan qiymət müəyyənləşdirildiyi üçün vahid metodologiyanın hazırlanması mümkün deyildir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.7-ci bəndinə** uyğun olaraq Komitənin 2013-cü il üçün satınalmalar planı Satınalmalar üzrə Dövlət Agentliyinə təqdim edilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **14.8-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsində dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin vahid məlumat bazasının yaradılması istiqamətində işlər davam etdirilir. Eyni zamanda Daşınmaz Əmlakın Qeydiyyatı layihəsi çərçivəsində hazırlanacaq Daşınmaz Əmlakın Qeydiyatı, Kadastrı və İdarəedilməsi İnformasiya Sistemi ilə bağlı verilmiş təkliflərdə Komitənin satınalmalarla bağlı biznes proseslərini idarə edəcək "Satınalmalar modulu"nun yaradılması təklif edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **15.1-ci və 15.3-cü bəndlərinə** uyğun olaraq “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun layihəsi hazırlanmışdır. Layihədə daşınmaz əmlaka dair əqdlərin təsdiq edilməsi ilə bağlı notariuslara daşınmaz əmlakın dövlət reyestrindən arayışların real vaxt rejimində əldə edilməsi imkanının verilməsi və daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi üçün müəyyən edilmiş 5 iş günlük müddətin 1 iş günü müddətinə endirilməsi nəzərdə tutulmuşdur. Layihə 27.12.2013-cü il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **15.2-ci bəndin**in icrası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş və “Elektron xidmət növlərinin Siyahısı”nın 24-cü bəndi üzrə Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu, daşınmaz əmlaka dair çıxarışların verilməsi, ipotekanın dövlət qeydiyyatı və s. bu kimi elektron xidmətlərin göstərilməsi təmin edilir. Eyni zamanda Komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni elektron xidmətlərin müəyyən edilməsi istiqamətində müvafiq təkliflər hökumətə təqdim edilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən göstərilən elektron xidmətlər vasitəsilə hüquqi və fiziki şəxslərdən 2013-cü il ərzində 6823 müraciət daxil olmuş, bunlardan 6684 müraciət icra olunmuş, 36 müraciətin icrasından imtina edilmiş, 18-inin icrası dayandırılmış, 65 müraciət isə icra edilir. Ümumilikdə isə Komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi elektron xidmətlər vasitəsilə hüquqi və fiziki şəxslər tərəfindən 8470 elektron müraciət daxil olmuşdur.

Komitənin fəaliyyət sahələri üzrə təşkil edilmiş elektron xidmətlərin “Elektron Hökumət” Dövlət İnformasiya Sisteminin (EHDİS) elektron xidmətlər portalına qoşulması istiqamətində fəaliyyət göstərilmiş və bu sahədə təşkil edilmiş 16 elektron xidmətin EHDİS-ə qoşulması təmin edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **15.4-cü bəndinə** uyğun olaraq Daşınmaz əmlakın dövlət reyestri ilə digər informasiya sistemləri arasında mübadilə imkanlarının genişləndirilməsi və informasiya mötəbərliyinin təmin edilməsi istiqamətində tədbirlərin görülməsi davam etdirilmişdir.

Daşınmaz Əmlakın Milli Qeydiyyat Sisteminin məlumat bazasında mövcud olan fiziki şəxslərin FİN nömrələrinin dəqiqləşdirilməsi məqsədilə Ədliyyə Nazirliyinin apardığı Əhalinin Dövlət Reyestri ilə inteqrasiya üçün fiziki qoşulma məsələləri həll edilmiş, reyestrlərarası inteqrasiya məslələlərinin həlli məqsədilə müvafiq servislər yaradılmış, MQS-in məlumat bazasına FİN nömrələr daxil edilmişdir. Hazırda MQS onlayn rejimdə Əhalinin Dövlət Reyestri Sistemi ilə inteqrasiyalı şəkildə işləyir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 05 sentyabr 2012-ci il tarixli 706 nömrəli Fərmanın 10.1-ci bəndinə uyğun olaraq yaşayış evləri (mənzilləri) üzərində mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması barədə çıxarışların və daşınmaz əmlak üzərində hüquqların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi ilə bağlı xidmətlərin “ASAN Xidmət” mərkəzlərində göstərilməsi və bu zaman mətn və skanlaşmış məlumatların MQS-ə avtomatik ötürülməsi, dövlət rüsumu və xidmət haqqı ödənişlərinin MQS-nin məlumat bazasına daxil edilməsi və hazır sənədlərin vətəndaşa təqdim edilməsi funksiyalarını əhatə edən Milli Qeydiyyat Sisteminin “ASAN Xidmət” Alt Sisteminin yaradılması işi təmin edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **18.1-ci bəndinə** uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24.11.2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı" ilə Əmlak Məsələləri Dövlət Komitəsi üzrə müəyyən edilmiş elektron xidmətlərdən müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı və Dövlət müəssisə və təşkilatlarının, habelə tam özəlləşdirilməmiş səhmdar cəmiyyətlərinin və nizamnamə fondunda dövlət payı olan hüquqi şəxslərin balansında olan limitdən

və tələbatdan artıq minik avtomobillərinin və digər nəqliyyat vasitələrinin, o cümlədən normativ istismar müddəti bitmiş, tam aşınmış, silinməli olan nəqliyyat vasitələrinin və avadanlıqların hərraclar vasitəsilə satışına aid müraciət və sənədlərin qəbulu ilə əlaqədar Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzinin internet saytının elektron xidmətlər bölməsində aidiyyəti üzrə tələb olunan sənədlər və sifariş forması yerləşdirilmişdir.

Keçirilmiş hərracların nəticələri haqqında məlumatlar komitənin rəsmi mətbu orqanı olan "Mülkiyyət" qəzetində dərc edilir və mütəmadi olaraq mərkəzin www.auksion.gov.az internet saytında yerləşdirilir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **18.2-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən həyata keçirilən "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakların satışı" elektron xidmətindən istifadə zamanı vətəndaşların real vaxt rejimində hərraclarda qeydiyyatdan keçmə prosesi təmin edilmişdir. 01 iyun 2012-ci il tarixindən 01 oktyabr 2013-cü il tarixinə qədər Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən 25 elektron sifariş üzrə 201 əmlakın satışı təmin edilmişdir. Həmin hərraclarda iştirak etmək üçün vətəndaşlar real vaxt rejimində hərraclarda qeydiyyatdan keçmiş və hərraca çıxarılan malın ilkin qiymətinin 10 faizi həcmində behin ödənilməsi elektron formada və real vaxt rejimində həyata keçirmişdirlər.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **23.1-ci bəndinə** uyğun olaraq "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Almaniya Federativ Respublikasının Maliyyə Nazirliyi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"na uyğun olaraq Almaniyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatı (GİZ) tərəfindən Berlin şəhərində "Almaniyada daşınmaz dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi" mövzusunda təşkil edilmiş təlim proqramında komitənin əməkdaşları iştirak etmişdir.

6 sentyabr 2013-cü il tarixində Bakı şəhərində keçirilmiş "Şirkətlərdə dövlətə məxsus payların və səhmlərin idarə edilməsi və özəlləşdirilməsi sahəsində Almaniya təcrübəsi" mövzusunda seminar keçirilmişdir.

Komitənin sərəncamında olan müəssisələrin idarə edilməsi və özəlləşdirilməsinin sürətləndirilməsi məqsədilə "Qabus" MMC tərəfindən müəssisələrin hərracda satış üsulu ilə özəlləşdirilməsi, investisiya müsabiqəsi vasitəsilə satılması, müəssisələrin nəznində olan və əsas fəaliyyət profili ilə heç bir uyğunluğu olmayan təsərrüfat və sahələrin ayrıca özəlləşdirilməsi üçün müəssisələrin restrukturizasiyası tədbirlərinin aparılması və sair barədə tövsiyələr hazırlanmışdır,

"Sentralaudit" MMC tərəfindən Komitənin sərəncamında olan 31 dövlət müəssisəsində təhlil işləri aparılmışdır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **26.1-ci bəndinə** uyğun olaraq Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Almaniya Federativ Respublikasının Federal Maliyyə Nazirliyi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 03 may 2013-cü il tarixli 867 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

"Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və Özbəkistan Respublikasının Özəlləşdirmə, İnhisarsızlaşdırma və Rəqabətin İnkişafı üzrə Dövlət Komitəsi arasında dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmış və Azərbaycan Respublikası Prezidentinin 11 iyun 2013-cü il tarixli 913 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsi ilə Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumundan irəli gələn məsələlər Koreya səfirliyinin nümayəndəsi ilə müzakirə edilmiş və Koreya Respublikasının özəl şirkətləri ilə komitə arasında gələcək əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılmışdır.

Dövlət əmlakının özəlləşdirilməsi və idarə edilməsi sahəsində ikitərəfli əməkdaşlıq çərçivəsində Rusiya Federasiyası, Belarus Respublikası, Türkiyə Cümhuriyyəti, Almaniya Federativ Respublikası, Koreya Respublikası və Özbəkistan Respublikasının aidiyyəti dövlət qurumları ilə aidiyyəti üzrə yazışmalar aparılmışdır.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində Komitə cari ilin 17–21 mart tarixlərində Qırğızıstan Respublikasının Bişkek şəhərində BMT-nin Avropa İqtisadi Komissiyasının (AİK) Daşınmaz Əmlak İdarəçiliyi üzrə İşçi Qrupunun 8-ci Sessiyasında 56 üzv dövlətin səsverməsi nəticəsində BMT-nin Avropa İqtisadi Komissiyasının Daşınmaz Əmlak İdarəçiliyi üzrə İşçi Qrupunun, eləcə də onun Bürosunun sədrlik hüququ əldə etmişdir.. Bununla əlaqədar İşçi Qrupunun fəaliyyət istiqamətlərindən irəli gələn işlərin görülməsi həyata keçirilir.

Bununla yanaşı Almaniyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GIZ) nümayəndəsi ilə əməkdaşlıq istiqamətləri müzakirə edilmiş, bunun nəticəsi olaraq, 2014-cü il üçün əməkdaşlıq planı qəbul edilmişdir. GİZ ilə əməkdaşlıq çərçivəsində cari ilin iyun ayında Berlin şəhərində təşkil edilmiş “Almaniyada daşınmaz dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi” mövzusunda təlim proqramında komitənin nümayəndələrinin iştirakı təmin edilmiş, həmçinin GİZ təşkilatının dəstəyi ilə Bakı, Xaçmaz və Şəki şəhərlərində komitənin əməkdaşları üçün seminarlar təşkil edilmişdir.

11-12 iyun 2013-cü tarixlərində Belçika Krallığının Luven şəhərində keçirilmiş “EuroGeogra-phics” beynəlxalq təşkilatının Baş Assambleyasında Əmak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastr və Texniki İnventarlaşdırma Mərkəzi təşkilata həqiqi üzv qəbul olunmuşdur.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **26.2-ci bəndinə** uyğun olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində Azərbaycan Respublikasının 3-cü raund

dəyərləndirilməsinə dair suallar toplusu Komitənin 130120802327 nömrəli məktubu ilə cavablandırılmışdır.

Eyni zamanda İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində 3-6 iyun tarixlərində keçirilmiş görüşlərdə Komitənin vəzifəli şəxslərinin iştirakı təmin edilmişdir.

Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **27.1-ci bəndinə** uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin 05 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası ilə bağlı "Konstitusiya" Araşdırmalar Fondunun digər qeyri-hökumət təşkilatları ilə birlikdə təşkil etdiyi tədbirlərdə, təqdimatlarda Komitənin iştirakı təmin edilmişdir.

Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **27.2-ci bəndində** nəzərdə tutulan tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaitlərinə dair vətəndaş cəmiyyəti institutları tərəfindən əsaslandırıcı sənədlər təqdim ediləcəyi təqdirdə tələb olunan maliyyə vəsaitinin büdcədən ayrılması üçün müvafiq tədbirlər görüləcəkdir.

Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **28.1-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri ilə bağlı, o cümlədən elektron xidmətlərin göstərilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı izahedici maarifləndirici çarxlarının hazırlanması və müxtəlif televiziya kanallarında nümayişi təşkil edilir. Müxtəlif mərkəzi və yerli televiziya kanallarında və qəzetlərdə komitənin ayrı-ayrı fəaliyyət istiqamətləri ilə bağlı maarifləndirici verilişlər və dəyirmi masaların, habelə yazıların dərc edilməsi istiqamətində işlər görülür.

Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **28.1-ci və 28.6-cı bəndlərinə** uyğun olaraq Komitənin internet saytında, "Mülkiyyət" qəzetində və "Daşınmaz əmlak" analitik informasiya bülletenində daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində həyata keçirilən

tədbirlər barədə müxtəlif informasiyaların, maarifləndirici məqalələrin, habelə respublikada daşınmaz əmlak bazarının inkişafı və mövcud vəziyyəti barədə təhlili materialların dərcinə xüsusi diqqət yetirilir. «Daşınmaz əmlakın qeydiyyatı Layihəsi»ndə hüquqi təkmilləşdirmə və maariflənmə, eləcə də ictimai agahlandırma tədbirləri həyata keçirilməkdədir. Layihə çərçivəsində təlim mərkəzi və hüquq maarifləndirmə mərkəzi yaradılıb. Hüquq mərkəzi Azərbaycanda əmlak münasibətlərinin müasir tələblərə və ölkənin ehtiyaclarına uyğunlaşdırılması üçün işlər görür. Mərkəz vasitəsilə əhalinin maarifləndirilməsi də aparılır. Hüquq maarifləndirmə mərkəzində təşkil olunan qaynar xəttə qısa vaxt ərzində yüzlərlə müraciət edilmiş və bu müraciətlər hüquqşünaslar tərəfindən operativ qaydada cavablandırılır.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı” və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsində müvafiq işlər davam etdirilir. Sözügedən Milli Fəaliyyət Planının icrası ilə bağlı komitənin növbəti il üçün İş Planı təsdiq edilmişdir.